Nəfsim əlində olana and olsun ki, aranızda namazıAllah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) namazına ən çox oxşayan mənim namazımdır. Bu onun dünyadan ayrılana qədər qıldığı namaz idi" deyirdi

Əbu Hureyrədən (Allah ondan razı olsun) rəvayət edildiyinə görə o, Fərz və digər bütün namazlarda, Ramazan ayında və ramazandan başqa aylarda hər namazda təkbir gətirirdi. Namaza qalxdıqda təkbir gətirərdi, rüku edərkən də təkbir gətirərdi. Sonra: "Səmi Allahu limən həmidəh" deyib rükudan qalxdıqdan sonra səcdə etməzdən əvvəl: "Rabbənə və ləkə-l-həmd" deyərdi. Sonra səcdə etmək üçün əyildiyində təkbir edir, səcdədən başını qaldırınca yenə də təkbir gətirirdi sonra təkrar səcdə etmək üçün təkbir gətirir sonra səcdədən başını qaldırınca yenə də təkbir gətirirdi. İkinci rükəti qılıb qurtardıqdan sonra üçüncü rükətə qalxarkən yenə təkbir gətirirdi. Sonra da bunu namazın hər rükətində namazı bitirənə qədər edirdi. Namazı bitirib insanlara tərəf dönüb: Nəfsim əlində olana and olsun ki, aranızda namazıAllah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) namazına ən çox oxşayan mənim namazımdır. Bu onun dünyadan ayrılana qədər qıldığı namaz idi" deyirdi.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Əbu Hureyrə (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) necə namaz qılmasının bir qismini rəvayət etmişdir. O Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) namaza qalxdıqda qiyamda olarkən Təkbiratul-ihram edərək namaza başlayar sonra rüku, səcdə, başını səcdədən qaldırarkən, ikinci səcdəni edərkən, başını ikinci səcdədən qaldırarkən, üç və dörd rükətli namazlarda ilk təşəhüddən qalxarkən də təkbir gətirdiyini xəbər vermişdir. Sonra da bunu namazın hər rükətində namazı bitirincəyə qədər etdiyini, başını rükudan qaldırdığında: "Səmi Allahu limən həmidəh" deyib rükudan qalxdıqdan sonra belini düz tutunca: "Rabbənə va ləkəl-həmd" dediyini xəbər vermişdir. Əbu Hureyrə (Allah ondan razı olsun) namazı bitirdikdən sonra insanlara tərəf dönüb: "Nəfsim əlində olana and olsun ki, aranızda namazı Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) namazına ən çox oxşayan mənim namazımdır. Bu, onun dünyadan ayrılana qədər qıldığı namazın sifəti idi" dedi.

http://sunnah.global/hadeeth/az/show/65098